# VII BÖLMƏ.
# TURİZMİN İNKİŞAFI ASPEKTLƏRİ

UOT 338.48

*Sevil Rauf qızı ELYAZOVA*
*magistr, Gəncə Dövlət Universiteti*
*elyazova.s@gmail.com*

*Elmi rəhbər: Arzu Nəcəf oğlu HƏSƏNOV,*
*i.e.d., professor əvəzi, Gəncə Dövlət Universiteti*
*arzu_hasan@mail.ru*

## TURİZMİN STATİSTİKASININ TƏKAMÜLÜNÜN TARİXİ-ELMİ ASPEKTLƏRİ

*Xülasə*

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - Turizm dünya iqtisadi sistemində sürətlə inkişaf edən fəaliyyət növlərindən biridir. Turizmin təşkili, idarə edilməsi və inkişafının təmin edilməsində mühüm rol oynayan peşəkar kadrların hazırlanması vacib vəzifələrdən biridir. Turizm sahəsində geniş biliklərə malik kadrların hazırlanmasında turizmin statistikasının metod və alətlərinin öyrənilməsinə geniş yer verilməlidir. Çünki, turizm sahəsində fəaliyyətin nəticələrinin ümumiləşdirilməsi, sistemləşdirilməsi, qiymətləndirilməsi və s. məsələlərin həlli üçün statistik məlumatların böyük rolu və əhəmiyyəti var. Müasir dövrdə informasiyanın əhəmiyyətini nəzərə alaraq qeyd etmək olar ki, turizmin statistikası bu sahədə mövcud vəziyyət barədə analitik məlumatların əldə edilməsinin mühüm vasitələrindən biridir. Eyni zamanda turizmin statistikası bu sahənin funksional əlamətlərinin, müxtəlif xüsusiyyətlərinin və bütövlükdə turizmin dərk edilməsi baxımından da əhəmiyyətli hesab edilir. Turizmin statistikasının aparılması nəticəsində əldə edilən informasiyalar həm də turizm sənayesinin, onun müxtəlif səviyyəli subyektlərinin idarə edilməsi prosesində adekvat qərarların qəbul edilməsində böyük rol oynayır.

**Tədqiqatın məqsədi** turizmin təşkili, idarə edilməsi və inkişafında mühüm informasiyaların əldə edilməsində mühüm rol oynayan turizmin statistikasının ümumi statistika elminin bir sahəsi kimi formalaşmasını şərtləndirən amilləri və funksional əlamətləri sistemləşdirmək və təkmilləşdirmək məqsədilə təkliflər verməkdən ibarətdir.

**Tədqiqatın metodoloji bazasını** bu sahədə mövcud olan elmi-nəzəri yanaşmalar təşkil edir.

Tədqiqat zamanı analiz, müqayisə, analitik ümumiləşdirmə, sistemli yanaşma və sintez metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** - Turizmin statistikasının formalaşması və inkişafına elmi-nəzəri yanaşmalar qruplaşdırılmış, turizmin statistikasında tətbiq edilən üsul və alətlərin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

***Açar sözlər: turizmin statistikası, turizmdə statistik metodlar, köməkçi hesablar, statistik analiz üsulları.***

### *Giriş*

Məlumdur ki, son bir neçə onillikdə dünya iqtisadi sistemi ciddi böhranlar, ziddiyyətlər, qlobal bazarlar uğrunda strateji mübarizələr, transformasiyalar və inteqrasiya proseslərinin baş verməsi dövrü kimi xarakterizə edilir. Bu proseslər müxtəlif fəaliyyət sahələrinin güclənməsi və qlobal iqtisadi güc mərkəzlərindən birinə çevrilməsi, digərlərinin sıradan çıxması, yeni bazarların yaradılması, transmilli korporasiyaların meydana gəlməsi və s. kimi nəticələr yaratmışdır.

Qlobal iqtisadi sistemdə sürətlə inkişaf edən, ciddi iqtisadi təsirlər yaradan, dinamik inkişaf edən və bir çox problemlərin həllində mühüm rol oynayan sahələrdən biri də turizm fəaliyyətidir. Son illərin qlobal iqtisadi sisteminin təhlili göstərir ki, həqiqətən turizm müasir dünya iqtisadi sisteminin inkişafında mühüm rol oynayır. Turizm dünya ÜDM-inin 9%-ni, hər 11 iş yerindən birini, investisiyanın 6%-ni, bütün ixracın 6%-ni və xidmət bazarının 25%-ni təşkil edir [9]. Bu göstəricilər turizm sənayesinin iqtisadiyyatda əhəmiyyətini və onun mühüm rolunu, sosial-iqtisadi problemlərin həllində payının kifayət qədər yüksək olmasını sübut edir.

Turizm sektorunda ən yüksək inkişaf səviyyəsi 2019-cu ildə müşahidə olunub. Ümumdünya Turizm Təşkilatının (ÜTT) məlumatına görə, 2019-cu ildə turizmin illik dövriyyəsi 4,7 trilyon dollar təşkil edib. Turizm fəaliyyətindən gələn gəlir isə 1,48 trilyon dollar təşkil edib. Həmin ildə turizmin dünya ÜDM-də payı 10,4% təşkil edib, dünyada hər 10 iş yerindən biri, iqtisadiyyatın bütün sahələrinə qoyulmuş ümumi investisiyaların 4,4%-i turizm sənayesinə yönəldilib ki, [12] bu da kifayət qədər böyük göstəricidir.

Bildiyimiz kimi, son illər dünya iqtisadiyyatında mənfi effektlər yaradan hadisələrdən biri də Covid-19 pandemiyasıdır. Əksər sahələrdə olduğu kimi pandemiyanın yaratdığı müəyyən məhdudiyyətlər turizmin inkişafına da çox böyük mənfi təsir etmişdir. Eyni zamanda bu pandemiyanın mənfi təsirlərinə baxmayaraq turizm sənayesi dünyada ən sürətlə inkişaf edən sahələrdən biri kimi qəbul edilir.

Bir çox qlobal hadisələr, xüsusilə, 2009-cu il qlobal iqtisadi böhranından sonra turizm sənayesi daha kütləvi xarakter almağa və müxtəlif turizm regionlarında illik 4-8% artımla sürətlə inkişaf etməyə başladı. Lakin bu dinamika 2020-ci ildə covid-19 pandemiyası ilə əlaqədar ciddi geriləmə yaşadı və həmin il dünyada turist səfərlərinin sayı 2019-cu illə müqayisədə 74%, turizm gəlirləri 1,3 trilyon dollar azaldı. Turizmlə bağlı təxminən 120 mln. iş yerləri bağlandı [13].

Turizmdə ən yüksək inkişaf həddinin qeyd edildiyi 2019-cu ildən sonrakı iki ildə (2020-2021) beynəlxalq turizm koronavirus infeksiyasından ən çox mənfi təsirə məruz qalan sahə olub. BMT-nin mühüm strukturlarından olan ÜTT-nin son məlumatlarına görə, 2021-ci ildə beynəlxalq turist səfərlərinin sayının 2019-cu illə müqayisədə 70-75% azalacağı gözlənilir və turizm iqtisadiyyatında hələ də pandemiyanın ağır mənfi təsiri özünü göstərəcək. Turizmin birbaşa ümumi daxili məhsulu 2020-ci ildə olduğu kimi daha 2 trilyon dollar itirə bilər ki, bu da böyük itki hesab edilir. 2021-ci ildə turizm ixracı da 2019-cu ildə qeydə alınan 1,7 trilyon dollardan xeyli aşağı olacaq və bu rəqəmin 700-800 milyon dollar səviyyəsində qalacağı proqnozlaşdırılır [11].

ÜTT-nin 18 yanvar 2022-ci il tarixli pres-relizinə görə, 2021-ci ildə beynəlxalq səviyyədə turist səfərlərinin sayı 2020-ci illə müqayisədə 4% (415 milyon nəfər) artıb. Gğründüyü kimi artıq turizm səfərlərində müəyyən artım müşahidə edilməyə başlayıb, lakin bu, pandemiyadan əvvəlki rəqəmdən 72% azdır [14]. 2021-ci ilin ikinci yarısında bu artım əksər ölkələrdə peyvəndin həyata keçirilməsi və bəzi ölkələrdə giriş məhdudiyyətlərinin yumşaldılması nəticəsində mümkün olub. Bu dövrdə turist səfərləri 2019-cu illə müqayisədə 62% azalıb. Lakin omikron virusunun yayılması nəticəsində 2021-ci ilin dekabrından etibarən ziyarətlərin sayında yenidən azalma müşahidə edilməyə başlayıb.

2020-ci illə müqayisədə 2021-ci ildə regional artım subregionlarda - Avropa və Amerikada müvafiq olaraq 19% və 17% olmuşdur. Bu göstəricinin Karib dənizi hövzəsi ölkələrində 63%, Aralıq dənizi ölkələrində 57% və Mərkəzi Amerikada 54% olduğu bildirilir. Qeyd edilən regionlarda və subregionlarda turist səfərlərində artımın müşahidə edilməsinə baxmayaraq, ümumi turist səfərlərinin sayı 2019-cu illə müqayisədə 56% azdır. Afrika bölgəsində də bu meyil müşahidə edilmiş, gələnlərin sayı 2021-ci ildə 2020-ci ilə nisbətən 12% artsa da, 2019-cu illə müqayisədə 74% az olmuşdur. Dünyanın digər turizm regionları və subregionlarından olan Yaxın Şərq, Asiya və Sakit Okean regionlarında ziyarətçilərin sayı 2020-ci illə müqayisədə müvafiq olaraq 24% və 65% azalmışdır.

2021-ci ildə turizmdən əldə edilən gəlirlər 700 milyard dolları az da olsa keçmişdir ki, bu da 2020-ci ildəkindən bir qədər çoxdur. Mühüm amillərdən biri də budur ki, bir turistdən əldə edilən

gəlir, ilkin hesablamalara görə, 2020-ci illə müqayisədə 200 dollar artaraq 1500 dollar təşkil emişdir və bu, turizm təkliflərinin tələbə nisbətən məhdud olması ilə əlaqədardır [13]. ÜTT-nin ekspertlərinin fikrincə, 2024-cü ildən sonra beynəlxalq turizmdə 2019-cu il səviyyəsinə çatmaq mümkün olacaq. Turizmin 2022-ci ildə 58%, 2023-cü ildə isə 48% artacağı proqnozlaşdırılır.

Göründüyü kimi, son illər qlobal pandemiyanın mənfi nəticələrindən irəli gələn bəzi inkişaf problemlərinə baxmayaraq, turizm sahəsinin qısa zamanda öz populyarlığını və kütləvi xarakterini bərpa edəcəyi şübhəsizdir. Bu həm də ona görə baş verəcək ki, insanlar üç ilə yaxın müddətdə səfər etmək və turizm xidmətlərinin istehlakçısı olmaq imkanlarından məhrum olduqları üçün onların yerdəyişmə istək və arzuları izafi həddə toplanmışdır və bu istəyin reallaşdırılması üçün münbit şərait gözləyirlər. Bir növ insanlarda “səyahət aclığı” sindromu yaranıb və bu “aclıq” aradan qaldırılmalıdır.

İnsanların tələbatının ödənilməsində mühüm rolu, ümumi xidmət bazarında yüksək payı, planetin hər beş nəfər sakinindən birinin turizm xidmətlərinin istehlakçısı olduğunu nəzərə alaraq, turizmin müxtəlif aspektlərinin, o cümlədən onun statistik məlumatlarının sistemli şəkildə öyrənilməsinə xüsusi diqqət yetirmək zərurəti yaranır. Eyni zamanda, bu fəaliyyət daha çox statistik göstəricilərlə xarakterizə edilə bildiyi üçün turizmin statistika məsələlərinin tədqiqinə xüsusi diqqət verilməsi məsələsi ön plana çıxır. Ona görə turizmin statistikasının ayrıca bir elmi sahə kimi yaranması və təkamülü prosesinin öyrənilməsi, müasir turizmin fəaliyyət sahəsi kimi maliyyə-iqtisadi göstəricilərinin dinamikasının, inkişaf qanunauyğunluqlarının, o cümlədən müasir inkişaf meyillərini şərtləndirən amillərin müəyyən edilməsində əhəmiyyətli məsələlərdən biridir.

Məlumdur ki, statistik uçot problemləri turizm tədqiqatlarında əsas yerlərdən birini tutur [1, s. 23]. Ona görə də turizm statistikasının formalaşması və təkmilləşdirilməsi məsələlərinə həsr edilmiş araşdırmaların aparılması hər zaman aktuallığını qoruyub saxlayır. Bu sahədə aparılan tədqiqatlar müəyyən dərəcədə turizmin statistikasının bu sahənin inkişafındakı yeri və roluna dair baxışların təkamülünü əks etdirir və onun iqtisadi effektlərini qiymətləndirməyə çalışır.

Turizm statistikasının inkişafı məsələləri məhz ümumi statistika elminin bir sahəsi kimi, xüsusiləşdirilmiş formada, yəni ümumi statistika fonu nəzərə alınmaqla bilavasitə turizmin mahiyyətinə müvafiq formada öyrənilməlidir [7] Müasir turizm statistikasının inkişafı bütövlükdə statistika elminin inkişafı ilə, eləcə də ən çox öyrənilən müasir dövrün fenomeninin-turizmin tarixi ilə ayrılmaz şəkildə bağlıdır. Turizmdə ilk statistik müşahidələr XIX əsrin sonu – XX əsrin əvvəllərinə, bir sıra Avropa ölkələrində təşkil olunmuş turizmin formalaşması və inkişafı, turist axınlarının həcminin sürətlə artdığı vaxta təsadüf edir.

Eyni zamanda elmi təhlildə turizmə dair statistik məlumatlardan geniş istifadə edilməklə turizmin müxtəlif aspektləri və problem mövzuları üzrə ilk ətraflı tədqiqatlar meydana çıxdı. Avropa ölkələrində turist axınının müntəzəm uçotu 1920-ci illərin sonundan başlanmışdır. Bununla belə, rəsmi turizm statistikası “öz müqəddəratını təyinetmə” üçün güclü təkan almasına baxmayaraq, statistikanın müstəqil bir qolu kimi meydana çıxmamışdır. Bu proseslərlə həm də paralel olaraq qeyri-rəsmi (alternativ) turizm statistikası formalaşdırılırdı.

Turizm proseslərinin inkişafı dalğasında yaranan könüllü ictimai təşkilatlar turistləri sadəcə saymaqla statistik məlumat toplamaq məsuliyyətini öz üzərinə götürdülər ki, bu da elementar uçot və təsviri funksiyaların yerinə yetirilməsi kimi qiymətləndirilə bilərdi. Həmin dövrdə turizm statistikasının təşkili üçün vahid ardıcıl sistemin, statistik məlumatların toplanması və emalı üçün tənzimlənən metodologiyanın olmaması, toplanmış məlumatların kifayət qədər tamlığına və düzgünlüyünə, turizmdə statistik müşahidənin vaxt, vahidlər və obyektlər baxımından uyğunsuzluğuna səbəb olmuşdur. Turizm statistikasının sistemli və konseptual əsaslarla formalaşmasında Millətlər Liqasının (indiki Birləşmiş Millətlər Təşkilatı) XX əsrin 20-ci illərində turizm sahəsində qlobal səviyyədə əhəmiyyətli olan statistik standartların yaradılması sahəsində gördüyü işlərin qeyd edilməsi lazımdır. Burada əsas vəzifələrdən biri turizmdə statistik müşahidələrin obyektini dəqiq müəyyən etmək idi. 1970-ci illərə qədər aparıcı ekspertlər statistik müşahidə vahidləri kimi

turistlərin bir sıra xüsusiyyətlərinə diqqət yetirirdilər ki, bu da onları bütün səyahət edənlərin ümumi kütləsindən fərqləndirməyə imkan verirdi.

1970-ci illərin sonlarından turizm statistikasının inkişafında yeni mərhələ başlanmışdır. Bu dövrdə turizm iqtisadiyyatın mühüm sahələrindən birinə çevrilmiş, statistika elmində "giriş-çıxış" cədvəlləri hazırlanmış, statistik uçot və hesabat standartlaşdırılmış, milli uçot sisteminin cədvəlləri tərtib edilmişdir. Bu mərhələ turizm statistikasında tədqiq və təhlil obyektinə sistemli yanaşmanı təsdiq edən işlərin meydana çıxması və turizmdə köməkçi hesabın tərtibi ilə əlamətdar olmuşdur.

Turizm statistikasında köməkçi hesabın [8] yaradılması və inkişafı onu beynəlxalq təşkilatların, xüsusilə Ümumdünya Turizm Təşkilatının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının, Avropa İttifaqının Statistika Xidmətinin (Eurostat), eləcə də ayrı-ayrı ölkələrin (ilk növbədə Fransa və Kanada), qeyri-dövlət qurumu olan Ümumdünya Səyahət və Turizm Şurası və digər tədqiqat subyektlərinin obyektinə çevirmişdir. Turizmin statistikası sahəsində müəyyən işlər görən və tədqiqatlar aparan subyektlərin səyləri turizmin iqtisadi hadisə kimi qiymətləndirilməsinin makroiqtisadi statistikaya daxil edilməsinə yönəlmişdi.

"Turist" uçotunun inkişafı tarixində mühüm mərhələlərdən biri 1991-ci ildə Kanadanın Ottava şəhərində Səyahət və Turizm Statistikası üzrə Beynəlxalq Konfransın keçirilməsi oldu. Konfransın nəticəsi olaraq statistik məqsədlər üçün hazırlanmış və daxili və beynəlxalq turizmlə bağlı əsas anlayışlar, təsnifatlar və ümumiləşdirilmiş göstəricilər toplusu, habelə Turizm Fəaliyyətlərinin Aralıq Beynəlxalq Standart Təsnifatı (SİKTA) [5] qəbul edilmişdir ki, bu da olduqca əhəmiyyətli sənəd idi.

Növbəti onillik turizm statistikası sahəsində müxtəlif təşəbbüslərin artması ilə əlamətdar oldu və bu, Birləşmiş Millətlər Təşkilatının Statistika Komissiyası tərəfindən "Turizmin Köməkçi Hesabı: tövsiyə olunan metodoloji çərçivə"nin [3] qəbul edilməsi ilə yekunlaşdı. XX əsrdə turizm statistikasının ardıcıl sisteminin yaradılması üzrə işlər davam etdirilmiş və təkmilləşdirilmişdir. 2000-ci illərdə onun təkmilləşdirilməsinə birbaşa təkan verən tədbirlərdən biri də milli mühasibat uçotu sahəsində əsas beynəlxalq standartların yenilənməsi oldu.

2008-ci il milli statistika sistemlərinin (SNA) yeni versiyası qəbul edildi, "Ödəniş balansı və Beynəlxalq İnvestisiya Mövqeyi Təlimatı"nın (BPM-6) altıncı nəşri buraxıldı, ISIC və Əsas Məhsullar Təsnifatının (CPC) yeni nəşrləri və Statistika üzrə təlimatlar, Beynəlxalq xidmət ticarəti statistikası üzrə təlimat buraxıldı. Turizm statistikası ilə bağlı yeni beynəlxalq statistik standartlar "Turizm statistikası üzrə tövsiyələr"in ikinci variantında – İRTS-2008-də öz əksini tapmışdır [4]. Bu tövsiyələrdə turizmin bəzi növlərinin təriflərinə yenidən baxılmış, turizm istehlakı konsepsiyasına aydınlıq gətirilmiş, turizm sektorunda məhsul və fəaliyyət növlərinin təsnifatına düzəlişlər edilmiş, turizm sənayesində və iqtisadiyyatın turizmlə əlaqəli sahələrində məşğulluq formalarının daha dərin şərhi verilmiş, turizm sahəsində inkişaf göstəricilərinin istifadəsinin genişləndirilmiş məcmu siyahısı verilmişdir. IRTS-2008-in inkişafı ilə eyni vaxtda turizm xərcləri və turizm istehlakı anlayışları ilə bağlı Turizm Köməkçi Hesabının metodoloji bazasında, yəni, ziyarətçilər tərəfindən satın alınan malların uçot sistemlərində müəyyən dəyişikliklər edildi.

Bu sənədlərdən hazırda dünyanın bir çox ölkələrində istifadə olunur. Turizm statistikasının inkişafı təkcə beynəlxalq və milli səviyyədə baş vermirdi. Bu sahədə fəaliyyət göstərən müxtəlif mütəxəssislər, tədqiqatçılar, turizm firmalarının rəhbərləri, böyük turizm müəssisələrinin mühasibatlıq işçiləri və s. şəxslər turizm statistikasının müxtəlif problemlərinin həll edilməsi, statistik hesablamaların aparılması, gələn-gedən turistlərin sayının qeydiyyatı, turistlərin xərcləri və s. məsələlərin dəqiqləşdirilməsi üçün üsullar müəyyən edir, prosesin statistik aspektlərinin təkmilləşdirilməsi üçün təşəbbüslər göstərirdilər.

Akademik səviyədə də ayrı-ayrı alimlər və yaradıcı kollektivlər bu sistemin inkişafına öz töhfələrini veriblər. Turizmin müasir statistik tədqiqatları mövzu müxtəlifliyi ilə xarakterizə olunur.

**Ümumiyyətlə, bu sahədə elmi-tədqiqat aparan alimlərin əsərlərini iki əsas qrupa bölmək olar**

1. Bir çox tədqiqatçılar çoxlu sayda, çoxlu statistik məlumatların təhlili və müasir statistik metodlardan istifadə edilməsi əsasında turizmin inkişafı məsələlərinin geniş spektri üzrə tədqiqatlar aparmışlar. Birinci qrupa aid edilən əsərlərdə əsasən turistlərin iqtisadi davranışlarını xarakterizə edən tədqiqatlar üstünlük təşkil edir. Bu tədqiqat əsərləri formalaşmış və geniş tətbiq edilən metodoloji yanaşmalardan, riyazi və iqtisadi statistikanın üsullarından, habelə ekonometrikadan istifadə ilə xarakterizə olunur. Müəlliflər zaman sıralarının təhlili metodlarından, xüsusən spektral (Fourier) analiz [7], çoxvariantlı statistik analiz üsulları-faktor analizi, klaster analizi [6], cazibə modelləri, AİDS modeli (Almost Ideal Demand System) Sistem) [9] və başqa tədqiqat metodlarından istifadə edirlər.

Turizm statistikasının sahə strukturunun ətraflı nəzərdən keçirildiyi və araşdırıldığı digər yanaşmada turist səfərlərinin statistikası, turizm xərclərinin statistikası, “davranış” statistikası (əhalinin turist kimi davranışı) kimi istiqamətlər üzrə turizm statistikasının metodologiyasına həsr edilmiş məsələlər nəzərdən keçirilir. Eyni zamanda bu istiqamət çərçivəsində turizmdə köməkçi hesabların yaradılması və təkmilləşdirilməsi məsələləri diqqət mərkəzində saxlanılır. [8]. Turizmdə statistik müşahidənin müxtəlif üsullarından istifadə təcrübəsini ümumiləşdirən işlərə, xüsusən də turistlərin seçmə sorğusu metoduna, mobil qrupların cəlb olunduğu müşahidə üsullarına və s. həsr edilmiş yanaşmalardan da geniş istifadə edilir.

Bütün bu metodlar, araşdırmalar, yanaşmalar və təşəbbüslər yekunda turizm fəaliyyətində yaranan halların, hadisələrin, axın və dövriyyələrin sayının, həcminin və statistik hesablamalar aparmaq üçün digər məlumat və verilənlərin əldə edilməsinə, sistemləşdirilməsinə və səmərəli istifadəsinə xidmət edir [2].

Turizmin statistikasının təkmilləşdirilməsi və inkişaf etdirilməsi məqsədilə təşəbbüslər və araşdırmalar hələ də davam etməkdədir. Son illər bu sahədə aparılan işlər turizm statistikası sisteminin hazırkı vəziyyətinə, onun problemlərinə və inkişaf perspektivlərinə həsr olunmuşdur. Eyni zamanda bu sahədə formalaşdırılmış prinsiplər, tətbiq edilən metodlar, mütərəqqi yanaşmaların turizm sahəsində fəaliyyət göstərən subyektlərə çatdırılması və onların maarifləndirilməsi üçün dərsliklər, metodiki vəsaitlər və s. hazırlanır və yayılır. Bu mövzuya həsr edilmiş dərsliklər, dərs vəsaitləri, elmi məqalələr və s. turizm sahəsində mütəxəssis hazırlığının səmərəli təşkili üçün mühüm əhəmiyyətə malikdir. Artıq əksər ölkələrdə turizm statistikası fənni turizm sənayesi üçün kadr hazırlığı üzrə dövlət təhsil standartlarına daxil edilmişdir və ona görə də bu sahəyə aid xüsusi tədris ədəbiyyatına böyük tələbat var.

Turizm sahəsi ilə bağlı statistik nəşrlər əsasən statistikanın ümumi nəzəri və sosial-iqtisadi məsələlərinə həsr olunub. Bəzi nəşrlərdə isə turizmdə statistik müşahidələrin xüsusiyyətləri, turizm statistikasının regional xüsusiyyətləri şərh edilir. Regionların sosial-iqtisadi inkişafında turizmin rolunun qiymətləndirilməsi baxımından turizmə aid statistik məlumatların sistemləşdirilməsi və əldə edilməsi olduqca vacib məsələlərdən biridir və həmin məlumatların təhlil edilməsi və turizmin inkişafında rolunun və istiqamətlərinin müəyyən edilməsi üçün əsas informasiya hesab edilir.

Hal-hazırda turizm sahəsində regional statistik məlumatların qəbul edilmiş beynəlxalq statistik standartlar əsasında unifikasiyası məsələləri diqqət mərkəzindədir. Eyni zamanda turizm statistikasının inkişafının müəyyən aspektləri üzrə işlər, o cümlədən turizmin müxtəlif növləri üzrə xüsusi sorğuların keçirilməsi təcrübəsi və statistik uçotun təşkili, turizm statistikası göstəriciləri sisteminin optimallaşdırılması, turizm statistikası sahəsində peşəkar kadrların hazırlanması və onların ixtisaslaşması da vacib məsələlərdən biri hesab edilir.

Turizm sahəsində müxtəlif istiqamətdə tədqiqatlar aparan mütəxəssislərin qarşısında duran əsas məsələlərdən biri də turizm iqtisadiyyatının daha dolğun və müqayisə edilə bilən tədqiqatlarını aparmağa imkan verəcək geniş çeşidli keyfiyyət göstəricilərinin tətbiqi ilə turizm sahəsində statistik uçot və hesabatlılığın elmi əsaslı sisteminin işlənib hazırlanmasıdır. Bu sistemdə turizm təklifləri və turizm tələbatları nisbəti, turizm istehlakı və turizm məhsullarının tədarükünün təhlili,

əsaslandırılmış statistik proqnozların verilməsi, bütün səviyyələrdə turizm üçün köməkçi hesabların yaradılması, bir sözlə, turizm statistikasının vahid sisteminin inkişafına zəmin yaradan məsələlərin həlli öz əksini tapmalıdır.

Ölkəmizdə də turizmin statistikasının tədqiq edilməsi, təkmilləşdirilməsi və bu sahədə mütəxəssislərin hazırlanması məsələsi gündəlikdə durur. Bu sahədə həyata keçirilən işlərdə əsas məqsəd konseptual yanaşmalara əsaslanan milli turizm statistikası sisteminin formalaşdırılması, onun alqoritmlərinin beynəlxalq turizm təşkilatlarının statistik göstəricilərinə uyğunlaşdırılmasından ibarətdir. Formalaşdırılması nəzərdə tutulan milli turizm statistika sistemi turizm sahəsində sosial-iqtisadi göstəricilərin nəticələri barədə əhatəli məlumatın toplanmasına, onların emal edilməsinə və qanunauyğunluqların müəyyən edilməsinə imkan verməli, turizmin kompleks və davamlı inkişafını təmin etmək üçün zəngin məlumat bazasının yaradılmasına zəmin hazırlamalıdır.

## ƏDƏBİYYAT


1. Александрова, А. Ю. Международный Туризм. Москва, 2012. 337 с. s.23.
2. Лодзинского воеводства в Польше//Инициативы XXI века. 2014. № 2. С. 64–72.
3. Вспомогательный счет туризма: рекомендуемая методологическая основа, 2008 год. Методологические исследования. Серия F № 80 / Rev. 1 / Департамент по экономическим и социальным вопросам. Статистический отдел ООН, ВТО, Еростат, ОЭСР. Люксембург-Мадрид-НьюЙорк-Париж, 2010. 132 с. URL: http://unstats.un.org/unsd/publication/ Seriesf/SeriesF_80rev1r.pdf.
4. Международные рекомендации по статистике туризма, 2008 год. Методологические исследования. Серия M № 83 / Rev. 1 / Департамент по экономическим и социальным вопросам. Статистический отдел ООН, ВТО. Мадрид- Нью-Йорк, 2010. 167 с. URL: http://unstats.un.org/unsd/publication/SeriesM/Seriesm_83rev1r.pdf.
5. Рекомендации по статистике туризма. Статистические документы / ООН, ВТО. Пер. с англ. Нью-Йорк, 2004.
6. Amaroa, S., Duarteb P., Henriquesa C. Travelers' use of social media: A clustering approach // Annals of Tourism Research. 2016. Vol. 59, July. P. 1–15.
7. Coshall, J. Spectral analysis of unternational tourism flows // Annals of Tourism Research. 2000. Vol. 27. Iss. 3, July. P. 577–589.
8. Frechtling, D.C. The Tourism Satellite Account: A Primer // Annals of Tourism Research. 2010. Vol. 37. № 1. P. 136 –153.
9. Morley, C., Rosselló J, Santana-Gallego M. Gravity models for tourism demand: theory and use // Annals of Tourism Research. 2014. Vol. 48. P. 1–10.
10. Tourism – an economic and social phenomenon // World Tourism Organization. URL: http://www2. unwto.org/content/why-tourism.(Müraciət tarixi: 12.03.2022.
11. UNWTO World Tourism Organization <noreply@unwto.org>Madrid, Spain, 28 November 2021.(Müraciət tarixi: 11.03.2022).
12. World tourism barometer. Tourlib.ne. [E-resourc]. URL: https://tourlib.net/ wto/UNWTO_Barometer_2021_01.pdf7.(Müraciət tarixi: 04.04.2022.
13. World Tourism Organization, News Release. Sapin, MADRID, 18 JAN 2022. (Müraciət tarixi: 02.04.2022).
14. World Tourism Organization (2021), The Economic Contribution of Tourism and the Impact of COVID-19, preliminary version, UNWTO, Madrid, DOI: https://doi.org/10.18111/9789284423200. (Müraciət tarixi: 27.03.2022.

***Севиль Рауф кызы Эльязова***
***магистр, Гянджинский Государственный Университет***
***elyazova.s@gmail.com***

***Науч. руковадитель: Арзу Наджаф оглы Гасанов,***
***д.э.н., и.о.профессора, Гянджинский***
***Государственный Университет***
***arzu_hasan@mail.ru***

## Историко-научные аспекты эволюции статистики туризма

***Резюме***

Туризм является одним из самых быстрорастущих видов деятельности в мировой экономической системе. Одной из важных задач является подготовка специалистов, играющих важную роль в организации, управлении и развитии туризма. Изучению методов и инструментов статистики туризма следует отводить широкое место в подготовке кадров в сфере туризма. Потому что, обобщая, систематизируя, оценивая результаты деятельности в сфере туризма и т. статистические знания имеют большую роль и значение для решения задач. Учитывая важность информации в современное время, можно отметить, что статистика туризма является одним из важнейших средств получения аналитической информации о текущей ситуации в этой сфере. В то же время статистика туризма считается важным компонентом в понимании функциональных и различных особенностей и туризма в целом. Информация, полученная в результате ведения статистики туризма, также играет важную роль в принятии адекватных решений в управлении туристской отрасли и ее различных субъектов.

**Цель исследования**-внести предложения по систематизации и совершенствованию факторов и функциональных характеристик статистики туризма, как часть общей статистической науки, играющих важную роль в получении достоверной информации в организации, управлении и развитии туризма.

**Методологической основой исследования** являются существующие научно-теоретические подходы в этой области.

**В ходе исследования** использовались методы анализа, сравнения, аналитического обобщения, системного подхода и синтеза.

**Научная новизна исследования**. Сгруппированы научно-теоретические подходы к формированию и развитию статистики туризма, определены направления совершенствования методов и инструментов, используемых в статистике туризма.

***Ключевые слова: статистика туризма, статистические методы в туризме, вспомогательные счеты, методы статистического анализа.***

***Sevil Rauf Elyazova***
***master, Ganja State University***
***elyazova.s@gmail.com***
***Scientific leader: Arzu Najaf Hasanov,***
***Dr., acting Professor, Ganja State University***
***arzu_hasan@mail.ru***

## Historical and scientific aspects of the evolution of tourism statistics

***Summary***

Tourism is one of the fastest growing activities in the global economic system. One of the important tasks is the training of specialists who play an important role in the organization,

management and development of tourism. The study of methods and tools of tourism statistics should be given a wide place in the training of personnel in the field of tourism. Because, by generalizing, systematizing, evaluating the results of activities in the field of tourism, etc., statistical knowledge has a great role and importance for solving problems. Given the importance of information in modern times, it can be noted that tourism statistics is one of the most important means of obtaining analytical information about the current situation in this area. At the same time, tourism statistics is considered an important component in understanding the functional and various features and tourism in general. The information obtained as a result of maintaining tourism statistics also plays an important role in making adequate decisions in the management of the tourism industry and its various subjects.

**The purpose of the study** is to make proposals for systematizing and improving the factors and functional characteristics of tourism statistics, as part of the general statistical science, which play an important role in obtaining reliable information in the organization, management and development of tourism.

**The methodological basis** of the study is the existing scientific and theoretical approaches in this area.

**In the course of the study**, methods of analysis, comparison, analytical generalization, a systematic approach and synthesis were used.

**Scientific novelty of the research**. Scientific and theoretical approaches to the formation and development of tourism statistics are grouped, directions for improving the methods and tools used in tourism statistics are determined.

***Key words: tourism statistics, statistical methods in tourism, auxiliary accounts, methods of statistical analysis.***